*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 16 iyul 2016-cı il | № 54 (2069) | Qiymət 25 qəpik


## Ali Baş Komandan İlham ƏLİYEV:

*Biz ordu quruculuğuna bundan sonra da ciddi diqqət yetirəcəyik. Bu məsələ - ordu quruculuğu prosesi həmişə prioritet olaraq qalacaq. Azərbaycan Ordusu bu gün istənilən vəzifəni icra etməyə hazırdır, buna qadirdir. Ordu quruculuğunun ölkəmizin müstəqillik illərində belə sürətlə inkişafı, əlbəttə ki, hər bir Azərbaycan vətəndaşını sevindirir. Biz fəxr edirik ki, bizim güclü ordumuz var. Mən dəfələrlə demişəm ki, Azərbaycan güclü dövlətdir və Azərbaycanın güclü ordusu var.*

# Qətiyyət yolu - qələbə yolu

***Hərbi xidmətin bir anını tarixləşdirmiş bu şəkil nələr deyir?..***

***Bu yolun başlanğıcı da məlumdu, sonu da. Başlanğıcı əsgər ürəyidi, sonu Şuşadı, işğal olunmuş ərazilərimizdi...***

***Bu yol çox istiqamətli yoldu...***



Bu yollardan biri aprelin əvvəllərində Lələtəpəyə apardı "hər sadə, mürəkkəb cümləsinin mübtədası" (S.Vurğun) Vətən olan əsgərlərimizi. Qətiyyətlə döyüşdülər, mərdliklə döyüşdülər, Vətənin adına layiq döyüşdülər. Düşmən gördü ki, belə bir ordunun qarşısında acizdi, belə bir orduya malik olan dövlətin torpaqlarını işğalda saxlaya bilməyəcək. Onu da dərk elədi ki, torpaqsevərlik işğal niyyətini sındırmağa, çilikləməyə qadirdir.

Aprel döyüşlərindən sonra Lələtəpə kimi mühüm əhəmiyyətli yüksəklikdə dövlət bayrağımız dalğalanır. O bayrağa gedən yolu bu əsgərlərin ruh qardaşları - Azərbaycan əsgərləri açdı. Bu yol həmin yola qovuşacaq. Qovuşan yollar Azərbaycan əsgərlərini Şuşaya, Laçına, Kəlbəcərə, Ağdama, Füzuliyə, Cəbrayıla, Qubadlıya, Zəngilana aparan yollara çıxardacaq. Uğur yolu, qələbə yolu olacaq bu yol...

Bu yol səngərdən keçir...

Səngərdən keçən yol qətiyyətlə, inamla, cəsarətlə keçirilir; bu yolu keçənlər qələbənin - Böyük Qələbənin təşnəsidi. Bu yolu keçənlər də Ali Baş Komandanın əmrinə müntəzirdi...

Bu yolu şəhidlərin ruhu uğurlayır...

Bu yol dağlardan sıyrılmış qılınc misallıdı, məqamında kəsiləsini kəsəcək...

Bu yol yadların niyyətini əzib keçəcək, direşənin ruhunu canından, canını torpaqdan üzüb keçəcək. Bu yolun özüylə apardığı yel, tufan, qasırğa torpaqdan üzülmüş canları gərəksiz, çox gərəksiz yük kimi süpürüb sərhədin o üzünə atacaq. Bu yol ona görə qüdrətli yoldu; qüdrətli yolu sevgilərlə keçənlər sabahın qalib əsgərləridi.

Bu yolu seçənlər - bu yolu keçənlər son döyüşün bayraqdarlarıdı. O bayraq "Vətən gözdü, biz kirpik, gözümüzün keşiyini çəkirik" deyən hər əsgərin ürəyindədi...

Bu yol dağlardan keçir...

Dağların sinəsindən keçən yol qətiyyət yoludu, sevgi yoludu, qələbə yoludu, uğur yoludu. Bu yol bu əsgərlərin yoludu, qələbənin yoludu...

**"Azərbaycan Ordusu"**



Mənəvi-psixoloji hazırlığın yüksəldilməsi başlıca vəzifədir

3-cü səhifədə



Sülh və əmin-amanlıq naminə

4-cü səhifədə



Bayrağımız Qarabağda dalğalanacaq

5-ci səhifədə



Vətənimizə layiq oğullar

7-ci səhifədə

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan ilə Belarus arasında hərbi-texniki sahədə əməkdaşlığın inkişafı üçün geniş imkanlar var



***İyulun 13-də Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov ölkəmizdə rəsmi səfərdə olan Belarus Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-mayor Oleq Belokonev ilə görüşüb.***

Belarusun nümayəndə heyəti əvvəlcə Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin və görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarlarını ziyarət edib. Qonaqlar, həmçinin Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını da ziyarət edərək əklillər və gül dəstələri qoyublar.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

Sonra Müdafiə Nazirliyində rəsmi qarşılanma mərasimi keçirilib. Qonaq fəxri qarovul dəstəsinin önündən keçib, hər iki ölkənin dövlət himnləri səsləndirilib və protokola uyğun olaraq "Şərəf kitabı" imzalanıb.

Azərbaycan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə Belarus generalı arasında təkbətək və geniş tərkibdə görüş keçirilib.

Qonaqları salamlayan general-polkovnik N.Sadıkov vurğulayıb ki, Azərbaycan Belarus ilə bütün istiqamətlərdə, o cümlədən hərbi sahədə əməkdaşlığa böyük əhəmiyyət verir. "Ölkələrimiz arasında hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın inkişafı üçün geniş imkanlar mövcuddur. Əminəm ki, sizin səfəriniz ölkələrimizin Silahlı Qüvvələri arasında əməkdaşlığın genişləndirilməsinə yeni təkan verəcəkdir. Belarus şirkətlərinin cari ilin sentyabrında Bakıda keçiriləcək "ADEX-2016" sərgisində iştirakı da ölkələrimiz arasında hərbi və hərbi-texniki sahələrdə ikitərəfli işbirliyinin inkişafında mühüm rol oynayacaqdır", - deyə general-polkovnik N.Sadıkov əlavə edib.

Regiondakı hərbi-siyasi vəziyyətə toxunan N.Sadıkov bildirib: "Uzun illər davam edən



Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində torpaqlarımızın 20 faizi hələ də işğal altındadır və bir milyondan çox soydaşımız doğma yurd-yuvalarından didərgin düşüb. Bu münaqişə regional sabitliyə əsas təhlükədir. İnanırıq ki, Belarus Respublikası bu münaqişənin nizamlanması məsələsində bundan sonra da Azərbaycanın haqlı mövqeyini dəstəkləyəcək."



Görüşdə Azərbaycan ilə Belarus arasında hərbi sahədə mövcud əməkdaşlığın və qarşılıqlı inamın gücləndirilməsinə xidmət edən fəaliyyətlər qeyd edilərək dövlətlərimizin regional təhlükəsizliyə verdiyi töhfələr xüsusi vurğulanıb.

Sonda ölkəmizə səfərindən məmnunluğunu bildirən qonaq Azərbaycan-Belarus münasibətlərinin möhkəmlənməsində bu cür görüşlərin və qarşılıqlı əlaqələrin genişləndirilməsinin zəruriliyini vurğulayıb.

İyulun 15-dək davam edən səfər çərçivəsində Belarus nümayəndə heyəti tərəfindən Silahlı Qüvvələrin Hərbi Akademiyası, Hərbi Hava Qüvvələrinin aviasiya bazası, Hərbi Dəniz Qüvvələrinin qərargahı, dəniz hazırlığı və dalğıc poliqonu, eləcə də sülhməramlı qüvvələrin hərbi hissəsi ziyarət olunub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,**
**fotolar çavuş**
**Vüsal HƏMİDOVUNDUR**

# Ermənistan mətbuatında yer alan əsassız məlumatlar düşmənin növbəti təxribatıdır

***Ermənistan mətbuatının iyulun 14-də axşam saatlarında cəbhənin Ağdam rayonu istiqamətində guya Azərbaycan Silahlı Qüvvələri bölmələrinin hərəkətə keçmək cəhdi barədə yaydığı məlumat təxribatdır və düşmən tərəfinin vəziyyəti gərginləşdirməyə hesablanmış növbəti addımıdır.***

Bu barədə Ermənistan mətbuatında yer alan əsassız məlumatlar barədə AZƏRTAC-ın sorğusuna cavab olaraq, Müdafiə Nazirliyi Mətbuat Xidmətindən bildiriblər.

Açıqlamada təəssüflə qeyd olunub ki, Ermənistan tərəfi öz təxribatlarını ört-basdır etmək və yaydığı məlumatların təsir gücünü artırmaq məqsədilə Azərbaycanın bəzi elektron informasiya vasitələrinin qeyri-dəqiq və anonim mənbəyə istinadən verdiyi xəbərdən uğurla istifadə edib.

"Bir daha bildiririk ki, hərbi mövzuda, xüsusilə cəbhə xəttində baş verən hadisələrlə bağlı, istənilən məlumatı yaymazdan əvvəl həmin xəbər mütləq mənada Müdafiə Nazirliyi ilə dəqiqləşdirilməli və dövlətimizin təhlükəsizlik maraqlarına xələl gətirməməlidir", - deyə nazirliyin açıqlamasında vurğulanıb.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***14 iyul 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 19 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə, Noyemberyan rayonunun Voskevan, Barekamavan kəndlərində yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Quşçu Ayrım, Qaymaqlı kəndlərində, Berd rayonunun Çinari və Mosesqex kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Çiləbürt, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

***15 iyul 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 10 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Vazaşen, Noyemberyan rayonunun Şavarşavan kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Bala Cəfərli, Fərəhli, Quşçu Ayrım kəndlərində, Berd rayonunun Ayqedzor kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun Baş Qərvənd, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Füzuli rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Silahlı Qüvvələrin Tibb Baş İdarəsində altı ayın yekunlarına həsr olunmuş tədbir keçirilib

***İyulun 15-də Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin şöbə rəisləri, hospitalların komandirləri, baş tibb mütəxəssisləri, Əlahiddə Ümumqoşun Ordu və birliklərin tibb xidməti rəisləri, təhsil müəssisələrinin cavabdeh zabitləri ilə 2016-cı ilin birinci yarımilliyinə həsr olunmuş toplantı keçirilib.***



Tədbir iştirakçıları əvvəlcə Silahlı Qüvvələrin Baş Klinik Hospitalının həyətində ulu öndər Heydər Əliyevin abidəsi önünə çiçəklər qoyaraq hörmət və ehtiramlarını ifadə ediblər.

Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovun iştirakı ilə keçirilən toplantı Dövlət himninin oxunması, ümummilli lider Heydər Əliyevin və şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb.

General-polkovnik N.Sadıkov əvvəlcə iştirakçıları Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından salamlayaraq cari ilin aprel ayında cəbhə bölgəsində aktiv döyüş əməliyyatları getdiyi dövrdə tibb xidmətinin fəaliyyətinin yüksək səviyyədə təşkil olunduğunu və bu sahədə həkimlərin peşəkarlığını xüsusi qeyd edib.

Ali Baş Komandan İlham Əliyevin orduya göstərdiyi etimadı doğrultmaq üçün tibb xidməti zabitlərinin də qarşısında mühüm vəzifələrin dayandığını vurğulayan Baş Qərargah rəisi, Müdafiə nazirinin müvafiq tövsiyələrini onların diqqətinə çatdırıb.



Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi tibb xidməti general-mayoru Natiq Əliyev tibb sahəsinə xüsusi diqqət ayırdığı və onların fəaliyyətini yüksək qiymətləndirdiyi üçün ordu rəhbərliyinə dərin təşəkkürünü bildirərək hesabat dövründə görülən işlər barədə geniş məruzə ilə çıxış edib.

Ötən yarım ilin yekunlarına həsr edilmiş toplantı tibb mütəxəssislərinin çıxışları və müzakirələrlə davam edib.

**"Azərbaycan Ordusu"**

# Mənəvi-psixoloji hazırlığın yüksəldilməsi başlıca vəzifədir

## Şəxsi heyətlə iş üzrə komandir müavinlərinin toplantısından qeydlər

***Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində 2016-cı ilin ötən dövrü ərzində həyata keçirilən tədbirlərin təhlili və döyüş hazırlığının ikinci yarımilində qarşıda duran vəzifələrlə bağlı toplantı öz işinə başlayıb. Toplantıda ümummilli lider Heydər Əliyevin və Vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***



Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev tədbirin gündəliyini toplantı iştirakçılarının diqqətinə çatdırıb.

Müdafiə nazirinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev toplantıda cari ilin ilk yarısında şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığını təhlil edərək Müdafiə nazirinin qərar və əmrlərinin tələblərinə, təhlükəsizlik qaydalarına əməl olunması və sayıqlığın artırılmasına dair təlimatların, hərbi qulluqçular arasında fərdi tərbiyə işinin düzgün aparılması, qarşılıqlı münasibətlərin nizamnamələrin tələblərinə uyğun təşkil edilməsi və bu istiqamətdə səylərinin artırılmasının vacibliyini qeyd edib.

Azərbaycan Respublikası Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Silahlı Qüvvələr Günü ərəfəsində hərbçilərə mənzillərin verilməsi hərbi qulluqçuların və onların ailə üzvlərinin məişət şəraitinin yaxşılaşdırılması istiqamətində atılan mühüm addımlardan biri olduğunu xatırladan nazir müavini, dövlət başçısının hərbçi ailələri ilə görüşü zamanı bir daha Azərbaycan Ordusunun mənəvi-psixoloji və döyüş hazırlığını yüksək qiymətləndirdiyini xatırlatdı. Nazir müavini bundan sonra da Ali Baş Komandan və Müdafiə naziri tərəfindən qarşıya qoyulan bütün tapşırıqların yüksək səviyyədə yerinə yetiriləcəyinə əminliyini toplantı iştirakçılarının diqqətinə çatdırıb.

Toplantıda çıxış edən general-mayor Rasim Əliyev hərbi kollektivlərdə mənəvi-psixoloji keyfiyyətlərin formalaşdırılması, sağlam mühitin yaradılması, dostluq və əsgəri yoldaşlıq ənənələrinin tərbiyə olunması istiqamətində komandir-rəis heyəti tərəfindən müvafiq işlərin görülməsinin vacibliyini iştirakçıların diqqətinə çatdırıb.

Toplantı şəxsi heyətlə iş üzrə zabitlərin, ictimaiyyət nümayəndələrinin, elm xadimlərinin, ziyalıların çıxışları və müxtəlif mövzuların müzakirəsi ilə davam edib.

Şəxsi heyətlə iş üzrə komandir müavinləri ilə keçirilən toplantının növbəti günündə çıxış edən Kadrlar İdarəsinin rəisi polkovnik Elçin Xəlilov Silahlı Qüvvələrdə döyüş hazırlığının yüksəldilməsi üçün kadr heyətinin müvafiq vəzifələrə təyin olunması və komplektləşdirilməsində şəxsi heyətlə iş üzrə müavinlərin mühüm rol oynadığını bildirdi. Həmçinin o, çıxışında zabitdən tutmuş sıravi əsgərə qədər hər birinin Vətənə məhəbbət ruhunda tərbiyə edilməsində Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin və hərbi hissələrdəki şəxsi heyətlə iş üzrə müavinlərin rolunun danılmaz olduğunu qeyd edib.

Toplantının davamında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nümayəndəsi Nahid Məmmədov "Dini radikalizmə qarşı mübarizədə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Silahlı Qüvvələrlə birgə fəaliyyəti" mövzusunda çıxış edib.

O bildirib ki, bu gün din və dindarlıq terrorla birgə tutulur. Çünki dünyanın bir çox yerlərində hansısa məqsədlər üçün din pərdəsi altında terror hadisələri törədilir. Hamıya məlumdur ki, son dövrlərdə din adı altında Suriya və İraqda üç yüz min adam qətlə yetirilib. Bütün bunlar radikallığın nəticəsidir. N.Məmmədov aprel döyüşləri zamanı sosial şəbəkələrdə ermənilərin əsassız şəkildə Azərbaycan Ordusu tərkibində İŞİD terror qruplaşmasının vuruşması barədə yalan məlumatlar yaydıqlarını vurğulayıb, həmçinin şəhidlərimizin qanı bahasına qazandığı uğurlara düşmənin kölgə salmaq istəyinin qarşısını almağa çalışdıqlarını qeyd edib.

O çıxışının davamında dini ekstremizmin və dini radikallığın bu gün böyük təhdid olduğunu, şəxsi heyət arasında belə zərərli təbliğat aparmağa imkan verməməyin önəmli olduğunu qeyd edib.

Hüquq İdarəsinin rəisi polkovnik Rauf Kişiyev 2016-cı ilin I yarımilində şəxsi heyətin mənəvi-psixoloji hazırlığı ilə məşğul olan zabitlərin fəaliyyətinin yüksək qiymətləndirilməsi düzgün iş prinsipinin qurulması ilə əlaqələndirdi. Həmçinin şəxsi heyətlə iş üzrə müavinlərlə hüquqşünasların birgə çalışması cinayət hadisələrinin vaxtında araşdırılmasını vurğuladı. Əvvəlki illərə nisbətən ölüm hallarının, cinayət işlərinin nəzərə çarpacaq dərəcədə azalmasının yerlərdəki zabitlərin, əsasən də şəxsi heyətin təlim-tərbiyəsi ilə məşğul olan zabitlərimizin əməyi kimi qiymətləndirdi.

**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Vüsal HƏMİDOVUNDUR**

# Belarus Silahlı Qüvvələrinin nümayəndə heyəti hərbi hissələrimizdə olub



***Ölkəmizdə rəsmi səfərdə olan Belarus Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-mayor Oleq Belokonevin rəhbərlik etdiyi nümayəndə heyəti hərbi hissələrimizi ziyarət edib.***

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, qonaqlar əvvəlcə Hərbi Dəniz Qüvvələrinin bazası və sülhməramlı qüvvələrin hərbi hissəsində yerləşən hərbi-texniki infrastruktur, inzibati, xidməti binalar və qurğular ilə tanış olub. Onlara şəxsi heyətin döyüş və xidməti vəzifələrini yerinə yetirməsi üçün yaradılan şərait barədə ətraflı məlumat verilib.

Sonra belaruslu qonaqlar Hərbi Dəniz Qüvvələrinin dəniz hazırlığı və dalğıc poliqonuna gəliblər. İxtisaslaşdırılmış dalğıc mütəxəssislərinin hazırlığı üçün nəzərdə tutulan və ən yeni dalğıc texnikası nümunələri, suyadalma vasitələri, xüsusi avadanlıqlarla təchiz edilmiş poliqonun infrastrukturu ilə tanış olan general-mayor O.Belokonev yaradılan şəraiti yüksək qiymətləndirib.



# Sülh və əmin-amanlıq naminə

## Sülhməramlılarımızın növbəti qrupu “Qətiyyətli dəstək” əməliyyatlarında iştirak etmək üçün Əfqanıstana yola salınıb

***Azərbaycan sülhməramlıları artıq uzun illərdir ki, beynəlxalq koalisiyanın tərkibində dünyanın narahat bölgələrində yetərincə xeyirxah missiya - sabitlik və təhlükəsizliyə davamlı dəstək göstərirlər. NATO ilə əməkdaşlıq proqramına uyğun həyata keçirilən əməliyyatlarda fəal iştirak etməklə ölkəmiz etibarlı tərəfdaş olduğunu bir daha dünyaya nümayiş etdirir. Hazırda Azərbaycan oğulları əzabkeş əfqan torpağında əmin-amanlığın yaradılmasına öz layiqli töhfələrini verməkdədirlər.***

İyulun 12-də Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, bir qrup sülhməramlı əsgərimiz rotasiya qaydasında Əfqanıstan İslam Respublikasına göndərilib. "N" hərbi hissəsində döyüşçülərimiz üçün yolasalma mərasimi keçirilib.

Yeri gəlmişkən, NATO-nun Varşava Sammitində Azərbaycan Prezidenti İlham Əliyev "Dövlət və hökumət başçıları səviyyəsində "Qətiyyətli dəstək" missiyası çərçivəsində aparılan əməliyyatlarda iştirak edən tərəfdaş dövlətlərlə Əfqanıstan üzrə görüş" mövzusuna həsr edilmiş sessiyada ölkəmizin beynəlxalq sülhyaratma missiyasına verdiyi dəstəkdən danışıb.

Əfqanıstanın təhlükəsizliyi və davamlı inkişafı, regional və qlobal sabitlik üçün əhəmiyyətini vurğulayan dövlətimizin başçısı NATO-nun etibarlı tərəfdaşı və Əfqanıstanın dostu kimi Azərbaycanın "Qətiyyətli dəstək" missiyasına verdiyi töhfəni davam etdirəcəyini və müxtəlif növ tranzit daşımalarını təmin edəcəyini söylədi.

Azərbaycan Prezidenti onu da bildirdi ki, ölkəmiz Əfqanıstanın milli ordusunun Qəyyumluq Fonduna artıq bir neçə dəfə əhəmiyyətli yardımlar göstərib. "Biz götürdüyümüz öhdəliklərə uyğun olaraq, həmin Fondu maliyyə baxımından dəstəkləməkdə davam edəcəyik. Biz Əfqanıstan ilə uzunmüddətli siyasi tərəfdaşlığa və praktiki əməkdaşlığa sadiq qalırıq və "Qətiyyətli dəstək" missiyası başa çatdıqdan sonra geniş Davamlı Tərəfdaşlıq Proqramı çərçivəsində töhfəmizi verməyi nəzərdə tuturuq".

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin verdiyi məlumata əsasən, Silahlı Qüvvələrimizin 44 hərbi qulluqçudan ibarət qrupu Əfqanıstandakı Azərbaycan bölüyünün hərbi xidmətini başa vurmuş şəxsi heyətinin bir qismini əvəz edəcəklər. Bir bu qədər də hərbi qulluqçumuz missiyasını başa vuraraq Vətənimizə qayıdacaqlar.

Hərbçilərimiz qarşıdakı sülhməramlı əməliyyatlarda iştirak etmək üçün hərtərəfli hazırlıq keçiblər. Şəxsi heyətdən missiyada kimlər iştirak etmək istəyirsə, müxtəlif yoxlamalardan, o cümlədən ciddi tibbi müayinədən keçirilirlər. Yəni, əslində, könüllülük prinsipi əsasında tabora əsgərlər qəbul edilirlər. Həmin əsgərlərdən daha bacarıqlı döyüşçülər seçilərək müvafiq məşğələlərə cəlb edilir, beynəlxalq hüquq normaları, sülhməramlı əməliyyatlar zamanı fəaliyyət qaydaları, o cümlədən sülhməramlı missiyaya göndərildikləri ölkənin adət-ənənələri, tarixi, mədəniyyəti barədə məlumatlandırılırlar.



Bizim sülhməramlı kontingent NATO-nun həyata keçirdiyi "Qətiyyətli dəstək" qeyri-döyüş missiyasının tərkibində 20 noyabr 2002-ci ildən Əfqanıstan İslam Respublikasında sülhməramlı əməliyyatlarda iştirak edir. Hazırda bu ölkədə bizim 94 hərbi qulluqçumuz xidmət edir. Onlardan iki nəfər mühəndis-istehkam xidməti zabiti Türkiyə sülhməramlı kontingentinin tərkibində, eyni zamanda iki həkimimiz yerli poliklinikada həm əhaliyə, həm də sülhməramlı kontingentin əsgərlərinə tibbi yardım göstərirlər.

Üç aydan bir rotasiya qaydasında həmin kontingentin bir hissəsi dəyişdirilir.

Onu da qeyd edim ki, sülhməramlı bölüyümüzün xidməti barədə hərbi hissə komandanlığı müntəzəm məlumat alır və xeyirxah missiyanın daşıyıcılarının fəaliyyətini daim nəzarətdə saxlayır.

Məlum olduğu kimi, bizim sülhməramlılar Türkiyə kontingentinin tərkibində xidmət edir. Gündəlik olaraq bölük komandiri hərbi hissə ilə rabitə əlaqəsi saxlayır. Eyni zamanda əsgərlərin valideynləri ilə danışması üçün rabitə əlaqəsi yaradılıb və valideynlər mütəmadi olaraq, yəni hər gün övladları ilə əlaqə saxlaya, danışa bilirlər.

Nümunəvi xidmət edən döyüşçülər kontingent komandanlığı tərəfindən sülhməramlı missiyanı şərəflə yerinə yetirdiklərinə görə dəfələrlə mükafatlandırılıblar. Əfqanıstanda əmin-amanlığın təmin edilməsinə öz töhfəsini vermiş, hazırlığı və peşəkarlığı ilə ölkəmizə şərəf gətirmiş neçə-neçə Vətən oğlu sülhməramlı missiyada nümunəvi xidmətinə görə medalla təltif edilib.

Uzaq ölkəyə yola salınmazdan öncə sülhməramlılarımız təhlükəsizlik qaydalarına əməl etmək barədə bir daha təlimatlandırıldılar. Komandanlıq yola düşənlərə Azərbaycanın adını və bayrağını Əfqanıstan İslam Respublikasında uca tutmağı tövsiyə etdi, döyüşçülərimizə xoş arzularını çatdırdı, onlara şərəfli missiyalarında uğurlar arzuladı.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Bayrağımız Qarabağda dalğalanacaq



Həyatda insanı tanıdan, sevdirən, gördüyü iş və ətrafındakı insanlara münasibətidir. İnsan dediyi sözün dəyərini və ona əməl etməyin vacibliyini dərk etməlidir. Ən önəmlisi həyatda tutduğun mövqedən asılı olmayaraq gördüyün işin məsuliyyətini gərək dərk edəsən.

Çətin, həm də şərəfli peşələrdən biri təyyarəçilikdi. Hərbi təyyarəçi olmaq isə ikiqat məsuliyyət deməkdir. Çünki uçmaqla yanaşı, Vətən torpağının müdafiəsində dayanmaq kimi müqəddəs vəzifəni yerinə yetirməlisən.

Bu mənada tanıdığım cəsur insanlar həyatlarını orduya, Vətənin müdafiəsinə həsr ediblər. Onlar Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus helikopterin heyət üzvləridir.

Mayor Yusif Əzizov 1994-1997-ci illərdə Uçuş Hazırlığı Təlim Mərkəzində təhsil aldıqdan sonra Mİ-24 helikopterində heyət komandiri kimi xidmətə başlayıb.

Təcrübəli zabit söhbətimiz zamanı ordumuzun varlığının hər kəsə güvənc verdiyini, müharibəyə hər an hazır olduqlarını bildirdi. "Şəxsi heyət yüksək əhval-ruhiyyədədir. Bu gün orduya diqqət və qayğı yüksək səviyyədədir. Ölkə və ordu rəhbərliyi də müntəzəm cəbhə bölgələrinə səfər edir, şəxsi heyətin qayğıları, sosial-məişət şəraiti və problemləri ilə maraqlanır. Danılmaz faktdır ki, əvvəlki illərlə müqayisədə peşəkarlıq və döyüş əzmi daha da yaxşılaşıb."

“Pilot olmaq uşaqlıq xəyalınızdırmı?” - sualına təcrübəli zabitin cavabı belə olur: "Hər kəs uşaqlıqdan pilot olmaq arzusuna düşə bilər. Çünki insanın ilk xəyallarından biri uçmaqdır. Kiçik yaşlarda qollarımızı açaraq sürətlə hərəkət etməyimiz, kağızdan təyyarələr düzəldib havaya buraxmağımız uçmaq istəməyimizin təzahürü idi. Uşaqlıqdan ürəyində uçmaq istəyi qalanlar isə pilot olmaq arzusu ilə üz tuturlar təyyarəçilik məktəblərinə.

Uçuş Hazırlığı Təlim Mərkəzindən məzun olduqdan sonra Mİ-24 helikopterində uçmağa başladım və o gün mən dərk etdim ki, bu sənət - təyyarəçilik sənəti üçün doğulmuşam.



Onu da qeyd edim ki, hər kəs pilot ola bilməz. Çünki bacarıqla yanaşı, yüksək səviyyəli təhsil lazımdır. İdarə etdiyin aparatı tam öyrənməli, hansı taktiki-texniki xüsusiyyətlərə malik olduğunu bilməlisən.

İdarə etdiyim döyüş helikopterinin heyət üzvləri kapitan Coşqun Rüstəmov və Amid Qurbanov öz işinin peşəkarı olan gənc zabitlərdir.

Bu gün orduda yüksək nizam-intizam var. Hər bir zabit və əsgər düşmənini tanıyır. Düşməni məhv etmək üçün barmağı tətikdə, gözləri nişangahdadır. Vətəni qoruyan əsgərlərimizlə üçrəngli bayrağımızı Qarabağda birgə dalğalandıracağıq. Onlar bayrağımızı uca yüksəkliklərə sancarkən, biz səmalarda bayrağımızla dövrə vuraraq sevincimizi birgə yaşayacağıq.”

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

# Torpaq həsrəti

1992-ci il mayın 17-18-i Laçın dağlarını duman bürüdü. Bu duman işğal dumanıydı, sevənləri o dağlardan uzaq saldı.

O faciəli vaxtdan 24 il ötüb. Heç kim el-obasını unutmur, unutdurmadı. Vətən həsrəti illərdi könülləri üzməkdədi.

Aprel döyüşləri el-obasından uzaq düşənlərin də ürək yanğısına su çilədi. Xalqın güvənc yeri olan şanlı ordumuz düşməni məğlubiyyətə uğratdı. Erməniləri əlverişli yüksəkliklərdən uzaqlaşdırdı. O həsrəti yaşayanların nisgilinin bitəcəyi günün uzaq olmadığına inamı bir daha artdı.

Əsgər Zaur Muxtarlının ailəsi birinci Qarabağ müharibəsində yurd-yuvalarından didərgin salınıb. Sumqayıt şəhərində məskunlaşıblar. Atası və yaxın qohumlarının çoxu Laçın uğrunda gedən döyüşlərdə iştirak edib. Zaur Sumqayıtda anadan olub.

Yolboyu uzanan yamyaşıl meşələr və meşənin dərinliyindən axıb gələn çayların şırıltısı ruha rahatlıq verir. Təbiətin gözəlliyini seyr edə-edə üstü dumanla örtülən dağın ətəyinə - "N" hərbi hissəsinin ön xətt bölməsinə çatırıq. Zaur da bu bölmədə əsgəri xidmət keçir. Döyüş növbətçiliyi aparan Zaurun yanında üçrəngli bayrağı qürurla tutan döyüş yoldaşı da dayanmışdı.

Zaurla söhbətləşirəm. 15 aydır ki, orduda xidmət edir. Görmədiyi Laçını da unutmur. Laçın həsrəti ilə döyünən igid əsgərimiz sözə başlayır:

- Laçını heç zaman unutmamışam. Ona qovuşacağımız günü səbirsizliklə gözləyirəm. Atam həmişə mənə Laçının necə gözəl yer olmasından danışırdı. Orada yerləşən müalicəvi əhəmiyyətli yerlərdən, təbii qoruqlardan, yeraltı və yerüstü sərvətlərdən və s. söz açırdı. Ömrünün çox hissəsini bu ərazilərdə keçirdiyini və son nəfəsini də orada vermək arzusu ilə yaşadığını deyən atam hər dəfə söhbətləşəndə deyir ki, oğlum, biz başqa dövlətlərin ordusunda xidmət etmişik, sənin Vətəndə xidmət etdiyin, öz yurdumuzun əsgəri olduğun üçün çox



xoşbəxtəm. “Sən Azərbaycan Ordusunun döyüşçüsü kimi yetişirsən. Bir arzum var ki, bu şanlı orduda səninlə çiyin-çiyinə vuruşub ata-babalarımızın yaşadığı el-obanı düşmənlərdən azad edək. Orada Azərbaycan bayrağının dalğalanacağı, zəfər marşlarının oxunacağı günü birlikdə görək."

Atasının arzusuna çatacağı günün uzaqda olmadığını deyən Zaur xidmət dövrünün imkanlarından ən yüksək səviyyədə yararlandığını və peşəkar komandirləri tərəfindən ordumuza hazırlıqlı döyüşçü kimi yetişdiyini vurğulayır. Komandirlərindən silahdan istifadə qaydalarını və döyüş hazırlığını mükəmməl öyrəndiyini qeyd edir. Postda ayıq-sayıq dayanan bacarıqlı əsgər sonda "Vətənin keşiyində durmaq, hər qarış torpağını göz bəbəyi kimi qorumaq şərəfli vəzifədir. Bu vəzifənin öhdəsindən layiqincə gəlmək üçün canımı belə əsirgəmərəm. Ali Baş Komandanın əmri ilə silahıma sarılıb döyüş meydanına atılmağa hər an hazıram. Torpaqlarımızı işğaldan azad edib, mənim kimi yüzlərlə həmvətənimin ürəyini üzən Vətən həsrətini bitirmək üçün son damla qanıma qədər döyüşəcəyəm," - deyir...

**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Ermənistanın növbəti təxribatı nəticəsində hərbi qulluqçumuz şəhid olub

Ermənistan hərbi-siyasi rejiminin rəhbərliyi cəbhə xəttində vəziyyətin gərginləşdirilməsi məqsədilə növbəti təxribatı həyata keçirib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, iyulun 14-də axşam saatlarında cəbhə xəttinin Ağdam istiqamətində düşmən tərəfindən açılan snayper atəşi nəticəsində Silahlı Qüvvələrimizin hərbi qulluqçusu baş leytenant Məmmədov Toğrul Səyyad oğlu şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin yaxınlarına, əzizlərinə dərin hüznlə başsağlığı verir və səbr diləyir!

Müdafiə Nazirliyi bildirir ki, törədilən təxribatlara görə tam məsuliyyət Ermənistanın hərbi-siyasi rejiminin üzərinə düşür.

**Cəbhəboyu zonada vəziyyətin həssaslığını nəzərə alaraq, Müdafiə Nazirliyi bir daha yerli kütləvi informasiya vasitələrinin rəhbərlərinə müraciət edir!**

Anonim və qeyri-rəsmi mənbələrdən əldə edilən hərbi məlumatların əksər hallarda araşdırılmadan qeyri-dəqiq formada yayılmasının düşmənin maraqlarına xidmət etdiyini nəzərə alaraq, bu mövzuda xəbərlərin Müdafiə Nazirliyinin rəsmi açıqlaması olmadan və dəqiqləşdirmə aparılmadan ictimailəşdirilməsinin qarşısının alınması tövsiyə edilir.

# Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində növbəti monitorinq keçirilib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyulun 15-də Azərbaycan Respublikası Füzuli rayonu Horadiz şəhərinin şimalından keçən Azərbaycan və Ermənistan qoşunlarının qarşıdurma xəttində növbəti monitorinq keçirilib.

Monitorinqi Azərbaycan Silahlı Qüvvələrinin nəzarət etdiyi ərazidə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Jiri Aberle, Saymon Tiller və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun (YSPQ) nümayəndəsi polkovnik-leytenant Den Harvey keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Xristo Xristov, Piter Şvedberq və YSPQ-nin rəhbəri polkovnik Hans Lampalzer keçiriblər.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

AZƏRBAYCAN ORDUSU

# Bir ömrün akkordları

*Silahlı Qüvvələrin 98-ci ildönümü ərəfəsində Azərbaycan Prezidenti İlham Əliyev sərəncam imzalayaraq xüsusi xidmətlərinə görə hərbi qulluqçuları təltif etdi. Mükafatlandırılanlar arasında Azərbaycanın hərbi dirijoru və pedaqoqu, Azərbaycanın xalq artisti, Müdafiə Nazirliyi Hərbi Orkestr Xidmətinin rəisi, professor, general-mayor Yusif Yevgeniyeviç Axundzadənin də adı vardı. Sərəncamda qeyd edildiyi kimi, Azərbaycan mədəniyyətinin, o cümlədən incəsənətinin inkişafında və təbliğində xidmətlərinə görə o, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görüldü.*



Geniş təqdim etməyə ehtiyacı olmayan maestro Yusif Axundzadəni xoşbəxt sənətkar hesab etmək olar. Azərbaycan incəsənətinin, o cümlədən hərbi musiqimizin inkişafında general-mayor Yusif Axundzadənin xüsusi rolu var. Tərcümeyi-halına diqqət yetirdikdə heyrətlənməyə bilmirsən.

Uzun müddətdir ki, (1970-ci ildən) hərbi dirijor və musiqi təşkilatçısı kimi Silahlı Qüvvələrdə xidmət edir və zəngin tərcümeyi-hala malikdir.

1946-cı il fevralın 6-da Bakı şəhərində dünyaya gəlmiş Yusif müəllim ilk musiqi təhsilini Bülbül adına musiqi məktəbində alıb. Sonra böyük Üzeyir Hacıbəyovun adını daşıyan Bakı Musiqi Akademiyasına daxil olub və 1969-cu ildə istedadlı gənc musiqiçi bu mədəniyyət məbədini uğurla başa vurub.

1971-ci ildə Bakıdakı S.M.Kirov adına Ali Hərbi Dənizçilik Məktəbinin orkestrinə hərbi dirijor təyin edilib. Musiqi sahəsində uğurlarına görə orkestr istedadlı həmyerlimizin rəhbərliyilə iki dəfə keçmiş SSRİ-nin paytaxtı Moskvada, Qızıl Meydanda keçirilən rəsmi paradda iştirak edib. Bu o zaman hər kollektivə müyəssər olan xoşbəxtlik deyildi.

1989-cu ildən pedaqoji fəaliyyətlə məşğul olan sənətkar 2008-ci ildən nəfəs və zərb alətləri kafedrasının müdiridir. O, bir sıra musiqi dərslik və proqramlarını, Azərbaycan bəstəkarlarının marşlarından ibarət partituraları, ölməz müğənni və bəstəkar Müslüm Maqomayevin "Azərbaycan" mahnısına, görkəmli mədəniyyət və dövlət xadimi, bəstəkar-müğənni Polad Bülbüloğlunun əsərlərinə hazırladığı fanfaralar ölkəmizin hərbi musiqisində əlamətdar hadisəyə çevrilib. Azərbaycan Respublikasının Dövlət himnini nəfəs alətləri üçün Yusif Axundzadə hazırlayıb.

Onun rəhbərliyilə Bakı Musiqi Akademiyasında ali musiqi təhsili almış məzunlar bu gün tanınmış musiqi xadimləridir. Onlardan biri Rusiya Federasiyasında hərbi orkestrin dirijorudur.

Eyni zamanda Yusif Axundzadənin bəstələri də musiqisevərlərə yaxşı tanışdır. Xoşdur ki, xalq artisti yazdığı və hərbçilər arasında populyarlıq qazanmış "Azərbaycan" marşını Silahlı Qüvvələrimizə həsr edib.

Maestroya ilk fəxri ad - əməkdar mədəniyyət işçisi adı 1979-cu ildə verilib. 1988-ci ildə əməkdar incəsənət xadimi adına layiq görülüb.

1992-ci ildən Yusif Axundzadə müstəqil Azərbaycanın Silahlı Qüvvələrində xidmətini davam etdirib, hərbi orkestr xidmətinin formalaşmasında böyük xidmət göstərib. O zaman ölkəmizdə nümunəvi hərbi orkestr yox idi. Halbuki xarici ölkələrdən gələn dövlət başçılarının qarşılanmasını, təntənəli dövlət tədbirlərini hərbi orkestrsiz təsəvvür etmək olmazdı. Yusif Axundzadənin təşəbbüsü ilə 1993-cü ildə yeni kollektivin ştat cədvəli hazırlanmış və təsdiq edilmişdi.

Təbii ki, o zaman çətinliklər də az deyildi, ilk dövrlərdə orkestr heyəti üçün müasir musiqi alətləri və xüsusi libasa ehtiyac var idi, yeni repertuar işləyib hazırlamaq asan deyildi. Bu problemlər tədricən aradan qaldırıldı, orkestrin kollektivi üçün qardaş Türkiyədən libaslar gətirildi, musiqi alətləri alındı, repertuar formalaşdı.

Bu gün yüksək ifa mədəniyyəti, dəqiqliklə seçilmiş marş və mahnılar, musiqiçilərin peşəkarlığı Müdafiə Nazirliyi Hərbi Orkestr Xidmətini səciyyələndirən əsas cəhətlərdəndir. Musiqi kollektivinin repertuarına orkestr üçün yazılmış orijinal əsərlərdən başqa Ü.Hacıbəyov, Q.Qarayev, F.Əmirov, S.Ələsgərov, O.Zülfüqarov kimi görkəmli Azərbaycan, Bethoven, Motsart, Veber, Verdi, Çaykovski, Raxmaninov kimi dünya və rus bəstəkarlarının ölməz əsərləri də daxildir.

Azərbaycanlılara məxsus zəngin musiqi mədəniyyəti, Silahlı Qüvvələrimizin gücü və qələbə əzmi, müasir gəncliyin vətənpərvərlik ruhunda tərbiyəsi onun ifa etdiyi dəyərli marşlarda və digər əsərlərdə öz əksini tapır.

Ölkəmizin həyatında elə bir təntənəli ictimai-siyasi və mədəni hadisə olmaz ki, bu hərbi musiqi kollektivi orada iştirak etməsin. Geniş meydanlarda, konsert salonlarında, mötəbər idman yarışlarının açılışında Azərbaycan və dünya bəstəkarlarının əsərləri yüksək səviyyədə səsləndirilir.

Vətənimizə gələn xarici ölkələrin prezidentlərini, digər yüksək vəzifəli dövlət xadimlərini qarşılayarkən həmin ölkələrin himnlərini Yusif Axundzadənin rəhbərlik etdiyi Müdafiə Nazirliyinin Hərbi Orkestri canlı olaraq və əzbərdən səsləndirdiyinin dəfələrlə şahidi olmuşuq. Hətta bəzi ölkələrin dövlət başçıları - İsveçrənin, Qazaxıstanın, Rusiyanın, Pakistanın prezidentləri öz heyrətlərini gizlətməmiş, yaxınlaşaraq orkestrimizə təşəkkürlərini bildirmişlər.



Ona Azərbaycanın xalq artisti adını 1998-ci ildə musiqi sahəsində çoxşaxəli fəaliyyətini yüksək dəyərləndirən böyük öndər Heydər Əliyev verib. 2003-cü ildə hərbi musiqimizin maestrosu Azərbaycan Prezidentinin sərəncamı ilə "Hərbi xidmətlərə görə" medalı, 2006-cı ildə isə "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib. 2015-ci ildə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təqdimatı ilə Müdafiə Nazirliyi Hərbi Orkestr Xidmətinin rəisi general-mayor rütbəsinə layiq görülüb.

Bu ilin fevralında görkəmli sənətkarımızın 70 yaşı tamam oldu. Fevralın 20-də musiqi mədəniyyətimizin beşiyi hesab olunan və böyük Üzeyir Hacıbəyovun adını daşıyan Bakı Musiqi Akademiyasının böyük zalında musiqi xiridarları və sevərləri - Bakı Musiqi Akademiyasının professor-müəllim heyəti, tələbələr, hərbçilər hərbi musiqimizin generalı, maestro Yusif Axundzadənin yubileyinin işığına toplaşmışdılar. Onlar maestronun yetirməsi olan Müdafiə Nazirliyinin Əlahiddə Nümunəvi Hərbi Orkestrinə məxsus estrada heyətinin ifasında sənət incilərini dinləyərək zövq aldılar. Azərbaycan və dünya estradasının ən gözəl nümunələrini o gün orkestrin solistləri - əməkdar artist Səbinə Əsədova, Kənan Qədimov, Nərmin Abdullayeva və Aynur İsgəndərli yüksək səviyyədə ifa etdilər. Böyük Müslüm Maqomayevin, bənzərsiz müğənnimiz Oqtay Ağayevin repertuarından götürülmüş və həmişə sevə-sevə dinlədiyimiz, unudulmaz Tofiq Quliyevin və digər bəstəkarlarımızın yazdığı, heç zaman təravətini itirməyən, ürəyəyatımlı mahnılar dəfələrlə tamaşaçılar tərəfindən alqışlarla qarşılandı.

Konsertin sonunda general-mayor Yusif Axundzadə həm estrada heyətinə, həm də zalda əyləşən musiqisevərlərə dərin minnətdarlığını bildirdi. Həmin gün Bakı Musiqi Akademiyasının böyük zalında bir ayrı ab-hava vardı. Sanki maestro öz çoxillik məhsuldar fəaliyyətinə görə hesabatını təqdim edirdi. General-mayor Yusif Axundzadənin simasında samballı zəhmətinin nəticəsinə görə bir iftixar duyğusu da sezilirdi. Doğrudan da, qürur hissi keçirməyinə dəyərdi.

İnanırıq ki, tükənməz yaradıcılıq imkanlarına malik general-mayor Yusif Axundzadə bundan sonra da Vətənimiz və onun mədəniyyəti naminə neçə-neçə gözəl əsərlər yaradacaq, mənalı ömrü yeni akkordlarla zənginləşəcək...

**"Azərbaycan Ordusu"**

# "Vətənin çağırışına həmişə hazırıq"

*Ölkə Prezidentinin müvafiq sərəncamı ilə xidmət müddətini başa vuran əsgərlər ordu sıralarından tərxis olunur. Xidmətini layiqincə başa vuran əsgərlərin bir neçəsi ilə söhbət etdim.*

**Əsgər Samir Bayramov:**

- Cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsində xidmət etmişəm. Torpaqlarımızı qorumaq bizim ən müqəddəs borcumuzdur. Əsgəri xidmətimi şərəf və ləyaqətlə yerinə yetirdim. Ordumuz gündən-günə güclənir, qüdrətini artırır. Zabit və əsgərlərimizin döyüş hazırlığı yüksək səviyyədədir. Düşmən ordumuzun gücünü, qüdrətini aprel döyüşlərində yaxşı gördü.

**Əsgər Ziya Məmmədli:**

- Mən Hərbi Hava Qüvvələrinin hərbi hissəsində xidmət etmişəm. Belə bir orduda xidmətimlə qürur duyuram. Hər birimiz həm güclü ordumuzla, həm də güclü dövlətimizlə fəxr edirik. Ordumuzun daha da güclənib inkişaf etməsi üçün bir əsgər kimi üzərimə düşən bütün tapşırıqların öhdəsindən bacarıqla gəldim. Zabitlərin verdiyi bütün döyüş tapşırıqlarını məsuliyyətlə yerinə yetirdim. Xidmətdə fərqləndiyimə görə dəfələrlə fəxri fərman və təşəkkürlər aldım.

**Əsgər Eşqin Ramazanov:**

- Əsgər kimi üzərimə düşən tapşırıqların öhdəsindən bacarıqla gəldim.

Ordu həyatı insana çox şey öyrədir. Burada bərkə-boşa düşürsən, sınaqlarla üzləşirsən. İl yarım əvvəl bugünkü kimi hərbi sahədə təcrübəli və peşəkar deyildim. Dünyagörüşüm zəif idi, məni əhatə edən aləmi, həyatı indiki kimi dərk edə bilmirdim. Ötən müddət ərzində ordu mənə hər şeyi öyrətdi. Keçirilən dərs və məşğələlərdə silahların və hərbi texnikanın sirlərinə yiyələndim. Atış çalışmalarında hədəfləri dəqiq vurdum. Döyüş hazırlığımı artırdım. Qısa müddət ərzində bacarıqlı və peşəkar əsgər oldum. Öyrəndiklərimə görə orduya, onun sıralarında xidmət edən təcrübəli zabitlərə borcluyam. Torpaqlarımızın azadlığı uğrunda döyüşlər başlayarsa, Vətənin çağırışına hər dəqiqə, hər an hazıram.

**Mayor
Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan Ordusu"**

# ABŞ-ın Oklahoma Ştatının Milli Qvardiyasının komandanı ölkəmizdə işçi səfərdədir



***ABŞ-ın Oklahoma Ştatının Milli Qvardiyasının komandanı general-leytenant Robi Aşerin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə işçi səfəri başlayıb.***

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, qonaqlar səfər çərçivəsində Silahlı Qüvvələrin Təlim Mərkəzində keçirilən "Mühəndis istehkam bölmələrinin fəaliyyəti" mövzusunda nümayiş etdirilən məşğələni izləyiblər.

Daha sonra ABŞ nümayəndə heyəti Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Hüseyn Mahmudovla görüşüb.

Görüş zamanı Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ABŞ-ın Oklahoma Ştatının Milli Qvardiyası ilə Ştatla Tərəfdaşlıq Proqramı çərçivəsində cari il ərzində keçirilən tədbirlər və 2017-ci il üçün planlaşdırılan fəaliyyətlər barədə fikir mübadiləsi aparılıb.



Azərbaycana səfərindən məmnunluğunu ifadə edən general R.Aşer hər iki ölkənin Silahlı Qüvvələri arasında əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş potensialın olduğunu bildirib.

ABŞ nümayəndə heyətinin səfəri iyulun 16-dək davam edəcək.

*Ordu və cəmiyyət*

# Vətənimizə layiq oğullar

***Ümummilli liderimiz Heydər Əliyev gələcəyimizin etibarlı təminatçılarına xitabən dediyi "Hər bir gənc Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək, inkişaf etdirmək, yaşatmaq üçün çalışmalıdır və öz xidmətlərini göstərməlidir" kəlamını xatırlayıram...***



Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunlarının builki 44-cü buraxılışında iştirak edən kursant valideynlərinin və yaxınlarının üzündə sevinc, duruşlarında məğrurluq hiss olunurdu. Kursantlar Vətəni qorumaq kimi bir müqəddəs peşəni seçdikləri üçün çox qürurlu idilər.

Mərasimdə qürurlanan, gözlərindən sevinc yaşları axan kursant valideynləri diqqətimi cəlb etmişdi. Tədbir başa çatanda onlardan birinə yaxınlaşaraq söhbət edirəm.

Vətən sevgisi ulu babalarımızdan qalan çox dəyərli mirasdır. Kursant Tofiq Bayramovun atası İlham müəllim Vətənə olan sonsuz sevgisini övladına aşılaya bilib. Oğlu torpaqlarımızın keşiyində dayanmaq kimi şərəfli bir peşəni - hərbçi peşəsini seçib.

İlham Bayramov kursant atası olması ilə fəxr edir və övladının sabahın layiqli zabiti olacağına inanır.

- Hər birimizin qəlbində müqəddəs bir hiss, Vətənə olan məhəbbət hissi yaşayır, - deyir müharibə veteranı. - Vətən sevgisi insanın özündən asılı olmadan yaranan bir ümmandır. Bu, doğrudan da, belədir. Vətən bizi qoruyan ana, doğulduğumuz, sığındığımız bir ocaqdır. Biz valideynlər bu sevgini övladlarımıza ötürürük. Bu gün çox güclü ordumuz var. Aprelin əvvəllərində gedən döyüşlərdə də biz bunun bir daha şahidi olduq. Həsrətində olduğumuz qələbə sevinci yaşadıq. Xalqımız öz ordusu ilə qürur duydu.

Mən övladımın savadlı, bacarıqlı bir zabit kimi yetişəcəyinə və Vətənimizə layiq oğul olacağına əminəm.

Məlum oldu ki, müsahibim aprel döyüşlərində aidiyyəti üzrə qurumlara müraciət edərək ordumuzun sıralarına qoşulmaq istəyib. Övladı ilə telefon əlaqəsi saxlayanda oğlunun da bir qrup kursant yoldaşları ilə cəbhə bölgəsinə getmək üçün liseyin rəhbərliyinə müraciət etdiklərini öyrənir. Atanın ürəyi qürurdan dağa dönüb.

Tofiqin anası Xalidə xanım övladının timsalında bu müqəddəs peşəni seçənlərə dözümlü, dəyanətli, cəsur olmalarını tövsiyə etdi.

**Leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu"**

*Əks-səda*

# Arakelyanın sürücülük vəsiqəsi və siyasiləşdirmə cəhdi

Erməni saytlarında "Ermənistan vətəndaşı, "DQR ordusu"nun podpolkovniki Arakelyan Aleksana məxsus sürücülük vəsiqəsinin itməsi ilə bağlı informasiya yayılıb. Ermənistan və "DQR" ombudsmanları da işə qarışaraq beynəlxalq humanitar hüquq normalarına uyğun olaraq sürücülük vəsiqəsinin qaytarılması ilə bağlı "sensasion" bəyanatlar yayıblar. Əslində, burada qeyri-adi heç nə yoxdur. Hadisənin (faktın) mahiyyəti tamam başqa rəylərə xidmət edir: Ermənistan vətəndaşı hansı yolla separatçı rejimin "podpolkovniki" olur? Aleksan Arakelyan və onun kimilərinin quldur dəstələr tərkibində başqa ölkənin ərazisində işğalçılıq fəaliyyəti ilə məşğul olması və Ermənistanda dövlət səviyyəsində dəstəklənməsi bütün beynəlxalq normaların pozulması deyilmi? Hər itən sənədə görə bu səviyyədə təşviş nəyə görədir? - sənədlərin tapılması və qaytarılması ilə məşğul olma münaqişələrdə əziyyət çəkən, itkin düşən insanların taleyini unutdurmurmu? O ombudsmanlar bunlarla niyə maraqlanmır?..

Yeqise və Rozannanın Ermənistana qaytarılmasına ermənilərin münasibətini xatırladım.

Yeqise arvadı Rozanna və uşaqları ilə Bakıdan gedəndə canlarını qurtardığına görə sevindiklərini bildiriblər. Ancaq axıra qədər sevinə bilmədilər. Onları elə bezdirdilər ki, özlərini damdan atmağa da cəhd elədilər.

İlk olaraq Ermənistan xüsusi xidmət orqanları onlara nələr öyrətməmişdi? Onun və ailəsinin saxlandığı şəraiti Yerevanda ən yüksək səviyyədə yaşayanların şəraitiylə müqayisə etmək olardı. Hamı bilir ki, bu Yeqise, arvadı və uşaqları Yerevanda görmədikləri günləri Bakıda gördülər, sonralar böhtanlar, yalan informasiyalar...

Bu hadisə ilə Aleksan Arakelyanın itmiş sürücülük vəsiqəsi arasında ümumi cəhət varmı? Varsa, nədir? - var, o ümumi cəhət ermənilikdi, fakt və hadisəyə (həm də əhəmiyyətsiz hadisəyə) siyasi mahiyyət vermək istəyi...

Ermənilik nə ayaq tuta bilər, nə də yeriyə bilər...

**İsa İSMAYILOV,
hərbi jurnalist**

# "ADEX-2016" sərgisində yeni "İldırım" və "Qasırğa" milli zirehli maşınlarının ilkin nümunələri nümayiş etdiriləcək

Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyi tərəfindən (MAKA) 2016-cı ildə Silahlı Qüvvələrin sifarişləri əsasında müxtəlif sahələri əhatə edən 33 mövzu üzrə elmi-tədqiqat işləri aparılır. İlk növbədə əsas diqqət müxtəlif döyüş tapşırıqlarının yerinə yetirilməsi məqsədilə yaradılan "Tufan" milli zirehli nəqliyyat vasitəsinin döyüş modulu, tank əleyhinə idarə olunan raket kompleksi, radioelektron mübarizə və kəşfiyyat avadanlığı və s. sistemlərlə təchiz edilmiş bir neçə variantının hazırlanması nəzərdə tutulur. Milli zirehli maşının təcrübi nümunəsinin ilin sonunadək hazırlanması planlaşdırılır.

AZƏRTAC xəbər verir ki, bunu iyulun 10-da Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında müdafiə sənayesi naziri Yavər Camalov deyib.

Xarici dövlətlərlə danışıqların nəticəsi olaraq, yeni "İldırım" və "Qasırğa" zirehli maşınlarının ilkin nümunələrinin hazırlandığını bildirən nazir həmin texnikaların Bakıda keçiriləcək "ADEX-2016" sərgisində nümayiş etdiriləcəyini və 2017-ci ildən seriya ilə istehsalına başlanacağını vurğulayıb.



"Daha bir yeni layihə "BRDM-2M" zirehli transportyorun üzərində orta mənzilli "Mizrak" tipli tank əleyhinə idarə olunan raket sisteminin quraşdırılmasıdır. Bu döyüş maşını da qısa müddət ərzində Silahlı Qüvvələrimizin ixtiyarına veriləcək", - deyə Y.Camalov qeyd edib.

*Düşüncələr*

# Ataların kitabı

Mirzə Cəlil "Anamın kitabı"nda yazırdı:

*"... mənim də balalarım dünyada hər yanı gəzib dolansalar, genə əvvəl-axır anaları Zəhranın ətrafında gərək dolanalar; çünki ay və ulduz şəmsin parçaları olan kimi, bunlar da analarının ay və ulduzlarıdır. Vay o kəsin halına ki, təbiətin həmin qanununu pozmaq istəyə!.."*



Ana - Vətəndi, ay-ulduz vətəndaşlardı; vətəndaş Vətənin - onu vətənli eləyən Vətənin, onun yaşamına qucaq açan Vətənin, onu o eləyən Vətənin, ... başına dolanmalıdı...

Məmməd Araz "Atamın kitabı"nda yazırdı:

*Təbiət özü də*
*bir kitabxana,*
*Hər dərə məktəbdir,*
*hər dağ müəllim.*

Dağ nə öyrədir? - əzəmətli ol, vüqarlı ol, torpağın müdafiəsində dayan, çaxan şimşəyi canına çək ki, torpağına düşməsin. Sinəni gen aç ki, yağan dolu torpağının gülüstanının sığalını itirməsin...

"Anamın kitabı" ruhumuzun kitabıdı; yüz ildən çoxdu ki, milli-mənəvi dəyərlərimizi, həm də bu kitabdan oxuduğumuz kəlamların işığında yaşadırıq.

On illərdir şair sözü torpaq sevgimizin - torpağa (deməli, Vətənə!) sevgimizin zikridi; "Anamın kitabı" niyyət kitabımızdı. "Atamın kitabı" Dədə Qorqud öyüdünə söykənən yaşam fəlsəfəmizin, dünəni sabahlar naminə yaşatma niyyətimizin kitabıdı. "Anamın kitabı"nda da, "Atamın kitabı"nda da oxuyub dərk eləmişik, oxuyub dərk eləyirlər, oxuyub dərk eləyəcəklər...

"Ataların kitabı" başqa kitabdı...

Ataların kitabı qələmlə yazılmayıb; bu kitabın vərəqləri səngərlər olub, qələmi güllələr, mərmilər...

"Ataların kitabı" "Anamın kitabı"nı mükəmməl mənimsəyənlərin, ruhuna hopdurub "Atamın kitabı"nı yazanların, bu kitabı oxuyub torpağa bağlılığı səngərlərdə yaşadanların kitabıdı...

Ataların kitabı xatirələrdi, yaxın keçmişdə olmuşlardı, torpaq uğrunda, Vətən uğrunda gedən döyüşlərin təəssüratlarıdı. Bu təəssüratlarda qürur da, təəssüf də, ağrı-acı da var, sezilməsi çətin olmayan həsəd də.

Ataların kitabı olmuşların tarixidi; hər təəssürat, hər söhbət bir tarixdi. Bu kitab əsgər üçündü, çağırışçı üçündü, yeniyetmə üçündü - dinlənilir, öyrənilir, yaşadılır. Yaşadayaşada Vətənin dağı-daşı olur, dağında-daşında səngər olur...

Tarix kitablarla yaşadılır, kitablarda yaşadılır. O tarixi həm də ataların kitabını dinləyənlər yaşadır. Dinləyənlər bizik - mən, sən, onlar. Biz kimik? - Vətən adlı bir Günəşin zərrələri!

Mayor Rasim İbrahimov 1993-cü ilin avqustunda düşmənə əsir düşməmək üçün özünü qumbara ilə partlatdı - tarixdi...

Kapitan Mehman Hüseynov Zəngilan işğal edilində - 1993-cü ilin oktyabrında Mahrızlıda tək-tənha yaşayan Qəfəs qarını xilas eləməyə gedəndə itkin düşdü - tarixdi...

Etibar İsmayılov 1994-cü ilin yanvarında özünü qumbara ilə birlikdə düşmən tankının altına atdı - tarixdi...

Mübariz İbrahimov 2010-cu ilin iyununda düşmənin üzərinə getdi, onlarla düşməni məhv elədi - tarixdi...

Aprel döyüşləri tarixdi...

Lələtəpədə bayrağımız dalğalanır - tarixdi...

Ataların kitabı bu tarixlərin kitabıdı...

Ataların kitabını Yusiflər, Vəzirlər, Koroğlular, Mehmanlar, Etibarlar, Mübarizlər, ... yazıb, onların qazi qardaşları yazıb...

Ataların kitabını sən davam etdirirsən, Azərbaycan əsgəri! Sən! Şərəflə, heysiyyatla, ruhumuzu yaşada-yaşada davam etdirirsən! Bu kitabı qələbələrlə sən zənginləşdirəcəksən. Şuşanın, Laçının, Kəlbəcərin, Ağdamın, Füzulinin, Cəbrayılın, Qubadlının, Zəngilanın işğaldan necə azad edildiyi bu kitabdan oxunacaq. Bunlar "Dədə Qorqud dastanları"nın 13-cü boyu kimi oxunacaq!..

Ataların kitabı tarixin kitabıdı.

Ataların kitabının baş qəhrəmanı sən olacaqsan, Azərbaycan əsgəri!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

*Ovqat*

# Sözün ucalığında

*Şeirin cazibəsi həmişə oxuyanı özünə çəkir. Yerində, məqamında deyilən söz hədəfə - ürəklərə, duyğulara hopur.*

*Anar Baxışov hərbçidir. Cəbhə bölgəsində yerləşən hərbi hissədə xidmət edir. Anar söz adamıdır, sözə hörmət edən, sözə tapınanlardandır. O, fikir və duyğularını, hisslərini şeirə hopdurmağı yaxşı bacarır. Vətənpərvərlik duyğusu, qələbə əzmi Vətənə, torpağa sevgi... onun şeirlərinin əsas qayəsidi. Qəzəlləri də sadəliyi və hikmət yükü ilə diqqəti cəlb edir.*



*Mayor Anar Baxışovun iki qəzəlini təqdim edirik.*

**"Azərbaycan Ordusu"**

Anaya can demişəm, canım üçün candır ana,
Övladə bu dünyadə doğma, mehribandır ana.

Ana varlıqdır, onun varlığına tay olmaz,
Ana safdır, yaradançün onu Rəhmandır, ana.

O, uca Tanrımızın bəxşişidir övlad üçün,
Balaya "can" deyərək canına can sandı ana.

O, mənim qollarımın, dizlərimin taqətidir,
Ürəkdə dövr eləyən damarımda qandır ana.

Gecə-gündüz ömrünü övladına həsr eləyib,
Yatmayıb an da belə, çox gözəl insandır ana.

Gözüm yox varda mənim, cahi-cəlal olsa belə,
İstəyim tək anadır, can sənə qurbandır, ana.

Ey Anar, vəzf eləyək doğma ana torpağı biz,
Ürəkdə hər sözümüz, Azərbaycandır, ana!

* * *

Sadə ol, sadəliyin hörməti hər an ucadır,
Sadəlik varsa əgər, o yerdə insan ucadır.

Düşünən haqq yolunu ruzi-bərəkət görəcək,
Gərəkir üz çevirək haramdan, xüsran ucadır.

Hörmət et, hörmətinin qiymətini el verəcək,
Lütfi-hörmət olana, hörməti ad-san ucadır.

Tut uca qamətini, əymə yerə başını sən,
Qaməti şux olan kəs görər ki, hər yan ucadır.

Qəlbimdə daim uca ata-ana rəğbəti var,
Ədnayi-övlad ilə cəfayi-giryan ucadır.

Ey Anar, sev Vətəni, çünki müqəddəsdi Vətən,
Duyuruq ruzigarın, Azərbaycan ucadır..!

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Süleymanov Xəyal Həsən oğluna 2015-ci ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 425
Nüsxə 4650